Azərbaycan.- 2021.- 11 iyun. S. 7.

# Şəhidlik zirvəsini fəth etmək hamıya nəsib olmur



Qarabağ zəfərini canı və qanı hesabına gerçəkləşdirən oğullarımızdan biri də Gədəbəydə dünyaya göz açmış Hüseyn Əsgərovdur. Yaşasaydı, 26 yaşı tamam olacaqdı Hüseynin.



O, Gədəbəyin səfalı guşələrindən olan Qoşabulaq kəndində dünyaya gəlmişdi. Gözünü açandan ata-anasından, oxuduğu 2 nömrəli kənd orta məktəbinin müəllimlərindən torpaqlarımızın 30 faizinin ermənilər tərəfindən işğal olunmasını eşitmiş və yəqin bu səbəbdən hərbçi olmağı qarşısına məqsəd qoymuşdu. Belə də oldu. Orta məktəbi bitirən kimi həqiqi hərbi xidmətə yollandı. Xidmətini başa vurduqdan sonra hərbidə qalmağı qərara aldı. Müdafiə Nazirliyinə ərizə ilə müraciət edərək arzusunu bildirdi və 2017-ci ilin mart ayından hərbi xidmətini davam etdirməyə başladı. Xidmət etdiyi dövrdə özünü nümunəvi hərbçi kimi göstərən Hüseyn dəfələrlə hərbi hissənin rəhbərliyi tərəfindən təşəkkürnamələr aldı.

Lakin Hüseyn torpaqlarımızın işğalı ilə barışa bilmirdi. Qisas anımı gözləyirdi. Çox çəkmədi ki, həmin məqam yetişdi. 2020-ci il sentyabr ayının 27-də başlayan Vətən müharibəsi ilə Hüseynin arzusu reallaşmağa başladı. Ordumuz sürətlə irəliləyərək düşməni torpaqlarımızdan qovurdu. Hüseyn isə Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak edirdi. Lakin bu döyüşlərin birində düşmən gülləsi həyatına son qoydu. Nəşi doğulub boya-başa çatdığı Gədəbəyə gətirilərək Qoşabulaq kənd qəbiristanlığında torpağa tapşırıldı. Ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olundu.

Qeyd edək ki, hər iki Qarabağ müharibəsində Gədəbəy 315 şəhid vermişdir. Onlardan 4 nəfəri Milli Qəhrəmandır. İkinci Qarabağ müharibəsində 39 şəhid verən gədəbəylilər Hüseyn Əsgərovun da xatirəsinə ehtiram göstərirlər. Elə bu günlər Hüseyn Əsgərovun doğum günündə də vaxtilə təhsil aldığı məktəbin müəllim və şagirdləri, kənd sakinləri, eləcə də rayon rəhbərləri şəhidin məzarı başına toplaşmışdılar. Cəmi 26 il ömür sürmüş Hüseynin necə vətənpərvər, xalqını sevən bir Azərbaycan oğlu olmasından bəhs edən fikirlər səsləndirilmişdir. Şəhidin atası Ramiz Əsgərov oğluna göstərilən diqqət və qayğıkeşliyə görə ailə üzvləri adından minnətdarlıq etmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***